**MƏDƏNİYYƏT DÜNYASI**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025**
**МИР КУЛЬТУРЫ**
**Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025**
**THE WORLD OF CULTURE**
**Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025**

**UOT 781,7**
**ORCID: 0009-0006-7630-466X**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0151**

**Fəxrəddin Baxşəliyev**
**Azərbaycan Milli Konservatoriyası**
**Etnomusiqişünaslıq kafedrasının dosenti**

# YAXIN VƏ ORTA ŞƏRQİN MİSTİK-RUHANİ MƏFKURƏSİNDƏ MUĞAM SƏNƏTİNİN YERİ

**Xülasə:** Məqalədə Şərq muğam təfəkkürünün və ümumiyyətlə musiqi yaradıcılığının sakral, ruhani və mənəvi keyfiyyətləri haqqında söz açılır. Qeyd olunur ki, dünya sivilizasiyına möhtəşəm mədəni töhfələr vermiş İslam Şərqinin muğam-məqam təfəkkürü öz daxilində dərin tarixi keçmişin izlərini, eyni zamanda onun özünəməxsus fəlsəfi qatlarını gəzdirməkdədir.

**Açar sözlər:** Muğam, Şərq, mədəniyyət, təsəvvüf, sakrallıq, fəlsəfə, sivilizasiya, din, sufi, panteizm

Mədəniyyətdən, yəni qeyri-maddi düşüncə və onun nəticələrindən başqa hər şey insan irqini növ olaraq, birləşdirir və insanın da digər canlılar kimi, ümumi ehtiyaclara tabe olduğunu ortaya qoyur. Mədəniyyət isə, belə deyil. Qeyd etdiyimiz kimi, bütün düşüncə növləri kimi mədəni düşüncə də yaradıcılıqla nəticələnir. Bu mənada Şərq dünyanın və tarixin müəllimi sayılır. Həm tarixilik və xronoılogiya baxımından, həm də fəlsəfi ilkinlik və sivil hökmranlıq nöqteyi-nəzərindən Yaxın və Orta Şərq həqiqətən dünyanın və bəşəriyyətin mənəvi, əqli və mədəni təməlini qoymuşdur.

Lakin biz Şərq dedikdə araşdırmalarımızın oreintasiyası baxımından Uzaq Şərqi qəsd etmirik. Əlbəttə, Çin və Hindistanın cənub şərqi kimi coğrafiyalar da Şərqdir və Şərqin qədim mədəni irsinin əsası sayılan yerlər məhz buralardır. Biz Şərq dedikdə yalnız Yaxın və Orta Şərqi nəzərdə tuturuq. Bu coğrafi şərtlənmənin kökündə isə, təkcə ərazi amili dayanmır. Düzdür, ərazi, relyef və ümumiyyətlə, coğrtafiya sivilizasiyanı formalşdıran amillərdən biridir. Lakin əsas və aparıcı amillər başqadır. Yaxın və Orta Şərq dedikdə biz daha çox İslam coğrafiyasını anlayışına istinad edirik. Çünki konkret olaraq, muğam

sənətinin yayılma arealı və ideoloji bazası da məhz elə bu coğrafiyanın məhsuludur. Fəqət, burada daha incə məqam ondan ibarətdir ki, Yaxın və Orta Şərqin mədəni xəritəsini formalaşdıran əsas keyfiyyət təkcə İslam və ya İslam sivilizasiyası deyil. Çünki bu coğrafiya islamiyyətdən öncə də yüksək sivil dəyərlərə malik olmuşdur. İstər Sumer-Babil, istər qədim Misir, istərsə də İran sivilizasiyaları tarixin əqli və mədəni bünövrəsini qoyan coğrafiyalar sırasındadır. Problem isə ondandır ki, islamiyyətin gəlişi ilə bu coğrafiyanın sivil xəritəsi pozulmaqla bərabər, eyni zamanda mənfiyə yox, müsbətə doğru dəyişməyə başladı. Yəni qədim mədəniyyətlər eyni zamanda həm məhv oldu, həm də öz əsilliyini yeni dini-fəlsəfi düşüncənin daxili parametrləri ilə birləşdirdi. Bu isə, həddindən artıq paradoksal bir mənzərədir. Məsələ burasındadır ki, başqa dinlərdən, xüsusilə də monoteist din olan xristianlıqdan fərqli olaraq, İslam dininin musiqi kimi, rəssamlıq, heykəltaraşlıq kimi incəsənət nümunələrinə öz ehkamları çərçivəsində o qədər də müsbət baxmadığı heç kimə sirr deyil. Görkəmli musiqişünas alim R. Zöhrabov qeyd edir: “Xüsusilə dini dairələrdə xanəndə-sazəndə peşəsinə xor baxılırdı. Lakin bu mürəkkəb, keşməkeşli dövrlərdə belə xalqımızın mütərəqqi alimləri, şair və sənətkarları musiqinin ecazkar təsir gücünü, zehnə, zövqə cila verdiyini dönə-dönə qeyd etmişdilər. Qətran Təbrizi, Xaqani, Nizami, Səfiəddin Urməvi, Əbdülqadir Marağayi, Nəsimi, Füzuli, M. F. Axundov, H. Zərdabi. S. Ə. Şirvani, M. M. Nəvvab və başqalarının ədəbi-elmi irsində musiqi haqqında bu gün də öz elmi-nəzəri əhəmiyyətini itirməyən fikirlər mövcuddur (Zöhrabov R., 2013, s. 29).

Paradoksal və qəliz problem də elə ondadır ki, İslam sivilizasiyasının öz daxilində həm elmi, həm bədii, həm də fəlsəfi-estetik yöndən ortaya çıxan mütərəqqi və yaradıcı cərəyanlar incəsənətin bütün növlərini elə bu dinin və bu dini ideyanı daşıyan bu ümmətin içərisində formalaşdırmağa başladılar. Həmin bu mütərəqqi və yaradıcı cərəyanların başında isə, heç şübhəsiz ki, İslam sufizmi dayanırdı. Orta əsr təsəvvüf məktəbləri haqqında oxuyuruq: “XII-XIII əsrlərdə sufilik elmi cəhətdən daha da təkmilləşir. Şərqin məşhur sufi alimləri elmin, mədəniyyətin dini-fəlsəfi irisinə müraciət edərək, onu islam ruhunda yenidən işləyib, müsəlman mədəniyyətinin tələblərinə uyğunlaşdırırlar. Sufi müdriklərindən olan azərbaycanlı Yəhya əs-Sührəvərdini (XII əsr) və ondan

fərqli olaraq, islam mədəni təməlinə, əvvəlki dövr sufilərinin nəzəri və əməli irsinə istinad edən İbn-Ərəbinin (XIII əsr) təlimi sufiliyin və müsəlman fəlsəfi fikrrinin inkişafında mühüm rol oynamışdır" (Əliyeva K. M., 2017, s. 59-64).

Məhz elə təsəvvüf dünyagörüşü islamiyyətdən öncəki Yaxın və Orta Şərq fəlsəfi-mistik fikrini islami qəliblər daxilində davam etdirməyə başladı. Əlbəttə ki, İslam təsəvvüfü tamamilə müstəqil, yeni və sərbəst bir dünyagörüş idi. Yəni onu müəyyən mənada Yunan panteizmindən tutmuş türk şamançılığına qədər əksər cərəyan və məfkurə ilə qovuşdursalar da İslam sufizmi həm bir anlamda onların cəmi idi, həm də onlarda olmayan və məhz elə İslamın özündən gələn fəlsəfi mahiyyət və nəzəri keyfiyyətlərə sahib idi.

Musiqinin Şərq təfəkküründəki yeri və əhəmiyyəti isə, ümumiyyətlə, insanlığın məsələsidir. Hələ qədim yunan miflərini təsvir edən nəqqaşlıq əsərlərində ruhani və sosial silsilə üzrə tanrılardan sonra muzalar gəlirdi. Elə həmin yunan panteizminin əsasını təşkil edən "pan" və "teist", yəni insan və Tanrı vəhdəti, yaxud da hər yerdə və hər zamanda olan Tanrı fikri məhz muzaların, yəni musiqinin dili ilə həqiqəti və onun qatlarını açığa çıxarır.

Şərq mifologiyasında isə məsələn, sirlərin söyləndiyi quyunun suyundan törəyən qamışlar və həmin qamışdan düzəldilən ney alətinin sonradan o sirləri açığa çıxarması kimi unikal rəvayətlər mövcuddur. Ümumiyyətlə isə, ney alətinin ruhsalığı, müqəddəsliyi Şərq insanının fikrini hər zaman məşğul etmişdir. Qoca Şərqin böyük dahisi, övliyalar övlyası Fəridəddin Əttar Nişaburinin "Məntiqüt-teyr" əsərində oxuyuruq: "Ney çalan bir nəfər ölüm halına gəldi.. başqa birisi ona "Ey sirrin ta özü olan, bu özündən getmə vaxtı halın necədir, nə aləmdəsən" deyə soruşdu. Neyzən dedi ki: "Heç soruşma, izah edilməsi mümkün deyil! Bütün ömrüm boyu nəfəs üfürdüm; sonunda da torpağa getdim, vəssəlam!" (Attar F., 1991, s. 7).

Bunun başqa və daha məşhur bir örnəyi Mövlana Cəlaləddin Ruminin "Məsnəviyi-mənəvi"sindədir:

بشنو از نی چون حکایت می کند
از جدای ها شکایت می کند
که از نیستان تا مرا ببریده اند
از نفیرم مردو زن نالیده اند

(“Beşno əz ney, çün hekayət mikonəd,
Əz cüdayiha şikayət mikonəd,
Kəz neyistan ta məra bobrideənd,
Əz nəfirəm mərdo zən nalideənd”) (Mövlana C. R., 2009, s. 11).

“Bu ney ayrılıqlardan necə şikayət edir,
bir dinlə, onu necə anladır, bir dinlə.
O zaman ki, məni qamışlıqdan kəsib ayırdılar,
o gündən bəri fəryadımdan kişi, qadın, hər kəs nalə edir” (sətri tərcümə tərəfimizdən edilib).

XX əsrdə yaşamış türkiyəli böyük arif və alim Kənan Rifai həzrətləri haqqındakı kitabda Mövlana Cəlaləddin Ruminin “Məsnəvi”nin girişinə dair bu qeydləri oxuyuruq: “Mövlana Cəlaləddin Rumi Məsnəvisinə “Eşit” sözüylə başlayır. Bu giriş İslam mədəniyyəti çağlarındakı dini ədəbiyyat ənənəsinə zidd bir şey kimi görünür. Çünki İslam dini və İslam ədəbiyyatına dair əsərlərdə sözə Allahın adıyla başlanılır. Bizim Anadoludakı dini ədəbiyyatımızın ilk mühüm əsərləri arasında Aşıq Paşanın “Qəribnamə”si, Gülşəhrinin “Fələknamə”si və Süleyman Çələbinin “Mövlud” mənzuməsi də bu qəbildəndir” (Binark İ., 2005, s. 154).

İzahlardan da göründüyü kmi, musiqi və onun tanrısal keyfiyyəti ümumiyyətlə, bəşər aləmini ən əski, antik və hətta arxaik çağlardan bəri düşündürən bir şey olmuşdur. “Dini nəğmələrin dünyəvi nəğmə-muğam yaradıcılığı ilə əlaqəsi müxtəlif səviyyələrdə araşdırılırdı. Bu əlaqə aşağıdakı şəkildə tədqiq edilirdi: qanunlaşdırılmış xanəndəlik ənənələrinin və muğam sənətinin şifahi ötürülmə formasında; hər iki (dini-yaradıcı və muğam) ifadə sistemlərinin mühafizəkarlığında; söz mətninin yazı ənənəsində; musiqi mətninin ümumi prinsipləri, məsələn, melodik xəttin fasiləsizliyində; musiqi mətninin sərbəst ritmikasında; ahəng əsasının bir çox daxili qanunauyğunluqlarında, həmçinin ritm məqamlarında; ahəngin motiv və tematik inkişafa imkan yaradan formayaradıcı amilində; emosional cəhətdən zəngin obrazlarda və fəlsəfi mahiyyətinin inandırıcılığında; virtuoz peşə ustalığını tələb edən ifa texnikasının improvizasiyalılığında özünü ifadə edir” (Quliyev M., 2004, s. 71-76).

Şərq təfəkkürü və konkret olaraq, İslam təsəvvüf anlayışı isə, çoxluğun gəldiyi elmi və nəzəri qənaətlərə əsasən, öz başlanğıcını və məntiqi strukturunu dünya xalqlarının ən qədim mədəniyyətlərindən almışdır. Elə buna görə də yaranan paradoksal və bir az da paranormal vəziyyətin, yəni təməl islami ehkamçılıqla bu dinə mənsub olan alim, sənətkar və mütəsəvvüflərin elə həmin ehkamçılar tərəfindən təqib olunmasının səbəbləri də bundadır. Çünki hər yaranan din və ya başqa bir cərəyan özünü qorumaq məqsədilə uzun bir müddət israrlı şəkildə özündən əvvəlki cərəyan və nəzəriyyələri inkar etmişdir. Beləliklə, mədəniyyət və mədəniyyət ünsürləri də bu kataklizmin içərisində məhv olub getmişdir. Lakin böyük mütəfəkkir və yaradıcı insanların, mütərəqqi fikirli dahilərin, reformatorların, fədakar məfkurə sahiblərinin səyi və zəhməti nəticəsində əski sivilizasiyaların müsbət və yaradıcı ünsürləri qorunmuş və yeni mədəniyyətlərin içərisinə çox ustalıqla və obyektivliklə yerləşdirilmişdir.

Şərq muğamalarına, eləcə də Şərq muğam təfəkkürünə aparan yol uzun və ziddiyyətli olmuşdur. Muğam sənəti kamil və proqramlı bir sənət növü olduğu üçün, heç şübhəsiz ki, özündən əvvəlki mədəniyyətlərin yaratdığı və paralel zaman içərisində yaşatdığı keyfiyyətləri özündə birləşdirəcəkdir. Muğamatı dinlədiyimiz zaman həmin zamanın və məkanın xaricinə çıxaraq, göz önündəki faktın əslində çox dərin və geniş fundamentə sahib olduğunu anlamaq və hissiyatı bu prizma üzərində formalaşdırmaq üçün güclü intellekt tələb olunur. Tarixi bilgilər, mədəni sivilizasiyaların əvəzlənməsi prosesinə bələd olmaq, ədəbi-poetik mətnin düzgün istiqamətdə qavranılması, musiqi nəzəriyyəsi nöqteyi-nəzərindən professionallıq və sairə keyfiyyətlər muğam ifasına yanaşma tərzini xeyli dərəcədə dəyişdirər və müsbət yöndə inkişaf etdirmiş olar. Bunun örnəyini biz heç şübhəsiz ki, təsəvvüf cərəyanlarına mənzub olan dərviş-musiqiçilərin timsalında görə bilərik: “Sufi ornamental – strukturlaşdırılmış sosial kosmosa, nizama deyil, N qədər davam edən mistik musiqi ritmikasının strukturluğuna üstünlük verir. sonuncu cəhət dünyəvi musiqi mətnlərinin bitkin, qapalı strukturundan uzaqdır. Bu mistik musiqinin “sonsuzluğu” sufini tam özünə tabe edib, onu ilahi olanın “sonsuzluğuna” qovuşdururdu” (Мехти Н., 1996, s. 109).

Şərq musiqi təfəkkürünün önəmli bir hissəsini də klassik ərəb musiqisi təşkil edir. Ərəblərin həm islamönsəsi, həm də islamsonrası musiqi təfəkkürü fərlqi dəyərləndirilir. Çünki islamiyyətlədən sonrakı ərəb klassik musiqi sənəti daha çox Quran oxunuşu və ibadətə çağırşın qısa, lakonik şəkillərindən təsirlənmiş musiqi formalarından təşəkkül tapırdı. Bəlkə də elə muğam oxunuşunun, daha konkret izah etsək, bəhrsiz, yəni zərbsiz musiqi ifasının əsas və seçilən təməlləri elə bu dövrdə qoyulmuşdur.

Bizim mülahizələrimiz iki baxımdan öz təsdiqini tapır. Birincisi budur ki, mədəniyyətlər çulğalşır və bu qaçılmaz bir prosesdir. İstər dini, istərsə də siyasi fəthlər nə qədər dağıdıcı və aqressiv keyfiyyətlər daşısa da eyni zamanda sivil dəyərlərin ən müxtəlif xalqlar və ən müxtəlif mədəniyyətlər arasında mübadiləsinə və inkişafına da səbəb olur. Digər bir məsələ isə, əsasən, məhz qədim Yunan sivilizasiyası üzərində qurulmuş Bizans mədəniyyətinin və qədimdən bəri öz monolitliyini fenomenal bir şəkildə qoruyub saxlayan İran mədəniyyətinin əhəmiyyəti və təsir dairəsidir.

S.Fərhadovanın qeydlərində muğam incəsənətinə yanaşma metodları haqqında maraqlı məqamlara rast gəlirik: “Muğamın ümumi mənzərəsinin tam olması üçün iki rakursdan yanaşma tələb olunur. Birincisi, muğamın tarixi kökləri, inkişaf xətti və baş vermiş dəyişikliklər, mümkün təhrif və ya əlavələr təhlil edilməlidir. Bununla bir tərəfdən muğamın hansı tarixi şəraitdə və şərtlər altında yaranması, digər tərəfdən isə öz inkişaf xətti boyunca xalqın ictimai həyatı ilə nə dərəcədə çulğalaşdığı nəzərdən keçirilir” (Fərhadova S. M., 2018, s. 13).

Şərqin muğam təfəkkürü bir ölkənin, bir mədəniyyətin məhsulu deyil, tam tərsinə, hətta bir-biriylə ideoloji və siyasi ziddiyyətlər təşkil edən və məhz ideologiya və siyasət üzərindən bir-biriylə onilliklərlə, bəzən əsrlərlə müharibə və dərin konfliktlər içərisində olan xalqlar və toplumların birgə intellektinin və zövqünün bəhrəsidir. Mədəniyyət və elm bir daha onu göstərir ki, dahilərin və mütəffəkkir düşüncə sahiblərin fərdi şüuru və fədakarlığı toplum şüurunda hər zaman özünə yer tutmuş xaosdan və düşmənçilik duyğularından qat-qat üstündür. Bu mənada musiqinin, ədəbiyyatın, rəssamlığın və eləcə də müxtəlif elm sahələrinin varlığı və onlara duyulan qeyri-maddi, qeyri-dünyəvi ehtiyac

insanlığın təməl prinsipi olaraq qalmaqdadır. İnsan oğlu hər zaman düşünmüş və yaratmışdır. Onun düşüncəsi və yaradıcılığı bəşəriyyətin ümumi intellektinə və onun milli, dini, coğrafi ayrılıqları yox etmək məcburiyətində qalan mənəvi şüuruna xidmət etmişdir. Bu sahədə bütün Şərqin və hətta bütün dünya mədəniyyətinin birləşdirici ünsürlərindən biri də mükəmməl nəzəri və fəlsəfi struktura malik olan, əbədiyaşar muğam sənətidir ki, onun tarixi köklərini araşdırdıqca, yeni-yeni elmi nəticələrə nail olmaq mümkündür. Bu nəticələr muğam incəsənətinin möhtəşəmliyini və ümumbəşəriliyini, eyni zamanda onun sakrallığını və müqəddəsliyini ayırd etməyə imkan verən yeganə və ən güclü vasitədir.

**Fakhraddin Bakhshaliyev**

## Traces of Mugham Art in the Mystical-Spiritual Ideology of the Near and Middle East

**Summary**

The article discusses the sacred, spiritual and moral qualities of Eastern mugham thought and musical creativity in general. It is noted that the mugham-magam thought of the Islamic East, which has made great cultural contributions to world civilization, carries within itself the traces of a deep historical past, as well as its own unique philosophical layers.

**Key words:** mugham, East, culture, sufism, sacrality, philosophy, civilization, religion, cufi, pantheism, etc.

**Фахраддин Бахшалиев**

## Место искусства мугама в мистико-духовной идеологии Ближнего и Среднего Востока

В статье рассматриваются сакральные, духовные и нравственные качества восточной мугамной мысли и музыкального творчества в целом. Отмечается, что мугамно-магамная мысль исламского Востока, внесшая огромный культурный вклад в мировую цивилизацию, несет в себе следы

глубокого исторического прошлого, а также свои уникальные философские пласты.

**Ключевые слова:** Мугам, Восток, культура, суфизм, сакральность, философия, цивилизация, религия, суфии, пантеизм

## Ədəbiyyat siyahısı

1. Zöhrabov R.F. Azərbaycan muğamları. – Bakı: Təsnif, 2013, 336 s. (236-238)

2. Əliyeva K. M. Azərbaycanda sufi xanəgahlarının əsas funksiyası// III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları. – Şamaxı, ADPU, 2017, 723 s.

3. Attar F. Mantık Al-Tayr. Çeviren Abdülkaki Gölpınarlı. -İstanbul,Milli Eğitim Basımevi, 1991, – 231 s.

4. مثنوی منوی. به کوشش و ورایش کاظم عابدینی مطلق. انتشارات ذهن اویز چاپ دوم 2009. تهران. 1111 ص.

Məsnəviyi-mənəvi, be kuşəş və virayişi- Kazim Abidini Mütləq, İntişarat Zehn Aviz. – Tehran, Dovvom, 2009, – 1111 s.

5. Binark İ. Dost Kapısı. l. baskı: İstanbul, Cenan Eğitim, Kültür ve Sağlık Vakfı neşriyatı, – 2005, 255 s.

6. Quliyev M. B. Azərbaycan muğamına dini-fəlsəfi baxış// “Konservatoriya” jurnalı, – №3 (25), “MBM”, – B.: 2004, – 135 s.

7. Мехти Н.М. Средневековая мусульманская культура: эстетика проявленного и философия сокрытого. – Б.: Ганун, 1996, – 39 с.

8. Fərhadova S.M. Azərbaycan muğam – dəstgahının tarixi kökləri. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondu, 2018. – 200 s.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 14.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 21.05.2025***
***Ekspert rəyi: Gülnar Verdiyeva***